## 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü

***❐ 1 İyun 70 ilə yaxındır ki, bütün dünyada uşaqların müdafiəsi günü kimi qeyd edilir. Əsas məqsədi dünya ictimaiyyətinin diqqətini uşaqların müharibə təhlükəsindən, aclıqdan qorunmasına, sağlamlıqlarının mühafizəsinə, onların təhsil və tərbiyəsinin demokratik ənənələr əsasında qurulmasına yönəltmək olan bu əlamətdar günün tarixi 1949-cu ildən başlayır. Həmin il qadınların beynəlxalq demokratik federasiyasının Moskvada keçirilən növbəti sesssiyasında 1 iyunun Uşaqların Beynəlxalq Müdafiəsi Günü adlandırılması qərara alınıb. Bu tarix ölkəmizdə də həmişə böyük təntənə ilə qeyd edilir. Ailələrdə 1iyunu uşaqların bayramı da adlandırırlar, çünki valideynlər məhz həmin gün başqa işlərini saxlayıb, onları xüsusi gəzintilərə aparır, əyləncə mərkəzlərində bayramı dostları ilə daha şən keçirmələri üçün vaxtının çoxunu körpələrinin əylənməsinə həsr edir və hədiyyələr alırlar.***









# Dünya boyda sevinc daşıyan gözlər











El arasında "uşaqsız ev, suyu sovrulmuş dəyirmandır" misalını nahaqdan çəkmirlər. Əgər bu dünyanın ələyindən keçməmiş, alabəzək boyağı ilə rəngdən-rəngə düşməmiş saflığı, təmizliyi, həqiqəti görmək istəyiriksə, körpə gözlərinə baxmaq kifayət edir. O gözlərdəki dünya boyda işıq bizim ömrümüzün onların həyatındakı davamıdır. O işıq qarmaqarışıq dünyanın bəzi qaranlıq məqamlarında yolu azmamaq üçün körpələrə yol göstərəcək mayakdır.

Dünyaya uşaq gəlir... Gözlərini açır, tanımadığı dünyaya heyrətlə baxır. Günlər keçir, körpə gülümsəyir, səslər çıxarır, iməkləyir, valideynlərini tanıyir... ana qucağını hər yerdən üstün tutur. Biz onların gözü ilə görür, addımları ilə gəzirik, sevirik, əzizləyirik, "oy" kəlməsinə "can" deyirik. Sanki, Allah günahkar bəndələrini, insanlığı xilas etmək üçün bu kiçik "mələkləri" – məsum körpələri yer üzünə göndərib ki, uşaq çöhrəsindən süzülən saflıq dünyanın günahlarını əridib yox etsin, saflaşdırsın. Göndərib ki, öz şirin kəlmələri ilə qəlbimizi sevindirib, üzümüzü güldürsünlər. Amma, təəssüf ki, qoca dünya günahını çox vaxt körpə gözlərindən axan yaşla "yumaq" istəyir. Qayğısız, xoşbəxt gülüşləriylə dünyanın dodağında təbəssüm olmağa gələn uşaqlar bəzən mənasız çəkişmələrin, amansız müharibələrin qurbanı olurlar. Dünyanın bir çox yerlərində alovlanan müharibə ocaqları minlərlə körpənin ölümünə, şikəst və sahibsiz qalmasına səbəb olur. Saf, kövrək körpə qəlbləri, taleləri çilik-çilik olub insanlığa yeni günahlar qazandırır.

Erməni qəsbkarlarının Azərbaycan torpaqlarında ərazi iddiası ilə törətdikləri qətliamlar vaxtilə yüzlərlə körpəmizi də açılmamış qönçə kimi soldurdu. Yüzlərlə uşaq valideynsiz qaldı, talelərinə istər fiziki, istərsə də mənəvi cəhətdən şikəstlik damğası vuruldu. Dövlətimizin qayğısı nə qədər yaralarına məlhəm olsa da, bu şikəstliyi daşımaqdan tamamilə qurtula bilmədilər. Bəziləri ana nəvazişinin, bəziləri ata güvəncinin nə olduğunu unutdu. Əvəzində çadır evlərin bumbuz ögeyliyini yaşadılar. Və beləcə ürəklərində nisgil, gözlərində düşmənə nifrətlə böyüdülər.

Bizim nə qədər körpələrimiz vəhşi erməni xislətinin qurbanı olub. Nə qədər gənclərin ümidlərini torpağa gömmüşük, nə qədər arzular qönçə halında solub?! Xocalı faciəsinin içindən keçən, qaçqın-köçkünlük həyatı yaşayan neçə körpənin gülüşü dodağında qalıb. Heç uzaq keçmişi demirəm, otən il Füzuli rayonunun Alxanlı kəndində 2 yaşlı Zəhramız vardı. Minaatanlardan və dəzgahlı qumbaraatanlardan açılan atəş həyatına son qoydu. ...Ağdamda 9 yaşlı Fariz vardı. 8 Mart günündə snayperlə başından vurub anasına "bayram hədiyyəsi" etdilər. ...Tovuzda nənəsigilə qonaq gələn qızın çaydan tutduğu oyuncaq əlindəcə partlayıb fidan ömrünə son qoydu. Belə ağrı verən, ürək sızladan misallardan çox çəkmək olar. Amma bu gün bayramdır... Gülüzlü balaların bayramı...

Və Azərbaycan dövləti ötən illərdə heç zaman öz qayğısını uşaqlardan əsirgəməmiş, körpələrin azad, firavan, qayğısız yaşaması üçün ardıcıl olaraq zəruri addımlar atmışdır. Respublikamızda uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası ilə və bir sıra qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu qanun bir sıra beynəlxalq sənədlərə, xüsusilə də "İnsan hüquqları haqqında" Ümumdünya Bəyannaməsi, Uşaq hüquqları Bəyannaməsi, BMT-nin Uşaq hüquqları Konvensiyası, Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsinə uyğun şəkildə hazırlanmış və uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və azadlıqlarını, eləcə də bu hüquqların reallaşdırılması üçün dövlətin vəzifələrini özündə əks etdirir.

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə uşaqlara xüsusi qayğı və diqqətlə yanaşıb. Ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev də ölkəmizdə uşaqların hərtərəfli inkişafı, onların müasir bilik və vərdişlərə yiyələnmələri üçün hər cür şərait yaradıb. Son illər Azərbaycanın hər bir guşəsində gözəl uşaq bağçaları, məktəblər tikilərək istifadəyə verilib.

Azərbaycanin Birinci vitse -prezidenti Mehriban xanım Əliyevanın uşaqlarla bağlı məsələlərə xüsusi diqqət yetirməsi bu sahəyə qayğının daha da artmasına səbəb olub. Heydər Əliyev Fondunun uşaqların intellektual və fiziki inkişafında həyata keçirdiyi mühüm layihələrin rolu danılmazdır. Fond müasir dövrdə uşaqların problemlərinin həllini, onların hüquqlarının qorunmasını ən aktual vəzifələrindən hesab edir.

Uşaqların yaşamaq hüququnun pozulmaması üçün bütün dünyada olduğu kimi, Azərbaycanda da müxtəlif tədbirlər keçirilir, məsumların heç olmasa, bir anlıq da olsa qayğıdan uzaq qalması naminə əllərindən gələni edirlər. Onların şərəfinə düzənlənən tədbirlərdə gördükləri diqqət, qayğı, sevinc hissləri fidanların körpə qəlbini dağa döndərir. Həmin anda uşaqların gözlərinə baxmaq kifayət edər ki, o gözlərin nə boyda sevinc daşıdığını duya biləsən, görəsən.

Qoy həmişə o gözlər sevincdən parlasın! Qoy həmin sevincdən bütün dünyaya pay düşsün! Qoy bizim körpələr aydın səma altında böyüsünlər! Qulaqları xoş xəbərlərə alışsın! Ölkəmizin səhərləri körpə səsləri, uşaq gülüşləriylə açılsın!

Bayramınız mübarək, balalar!

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***